**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Qızlar Universiteti**

*Bakı Qızlar Universitetinin*

*Elmi Şurasının 16 yanvar*

*2024-cü il tarixli iclasının (Protokol №6 )*

*qərarı ilə təsdiq edilmişdir.*

# BAKI QIZLAR UNİVERSİTETİNİN

# VEB SAYT STRUKTURU HAQQINDA

# ƏSASNAMƏ

**BAKI -2024**

**BAKI QIZLAR UNİVERSİTETİNİN**

**VEB SAYT STRUKTURU HAQQINDA**

**ƏSASNAMƏ**

**Bakı Qızlar Universitetinin Veb sayt strukturunun Əsasnaməsi**

**Ümumi müddəalar**

1. Veb sayt strukturunu Universitetin tədris,elmi-tədqiqat fəaliyyətinə informasiya dəstəyi göstərən, həmçinin mədəni, mənəvi və intellektual ünsiyyət mərkəzi sayılan əsas qurumudur.

1.2. Bakı Qızlar Universiteti Veb sayt strukturunun kabinet müdiri olaraq, Veb sayt struktur fəaliyyətini müəyyən edilmiş qaydada ona nəzarət edir.

1.3. Veb sayt strukturu Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun hüquqi normativ aktlara, ali təhsil orqanlarının və Universitet daxilində qəbul edilən qərarlara və bu Nizamnaməyə müvafiq olaraq fəaliyyət göstərir.

**Veb sayt strukturunun məqsəd və vəzifələri**

2.1. Müəllim, tələbə, elmi işçi və digər universitet əməkdaşlarının informasiyaya olan tələblərini ödəmək üçün Veb sayt strukturunun məlumat axtarış aparatı vasitəsilə müxtəlif çeşidli xidmətlər təqdim etmək.

2.2. Veb sayt strukturunun fondunu Universitetin profilinə və istifadəçilərin informasiya tələblərinə uyğun olaraq formalaşdırmaq.

2.3. Veb sayt strukturunun müasir texniki təchizatı, informasiya proseslərinin avtomatlaşdırılması və yeni informasiya texnologiyalarının tətbiqi əsasında informasiya xidmətinin çeşidini genişləndirmək və keyfiyyətini yüksəltmək.

2.4. İstifadəçilərin informasiya əldə etmək qabiliyyətini, axtarış və informasiya resurslarından düzgün və səmərəli istifadə etmək bacarığını formalaşdırmaq, innovasiyaları tətbiq etmək.

2.5. Informasiya texnologiyaları sahələrində elmi və elmi-metodiki fəaliyyət göstərmək.

2.6. Veb sayt strukturunun Universitetin intellektual və mədəni mərkəzi kimi inkişaf etdirmək.

**Veb sayt strukturunun funksiyaları**

3.1. elektron kataloq, qəzet və jurnalların kartotekası, məlumat bazaları və digər informasiya axtarış sistemi vasitələri ilə kitabxana fondu haqqında məlumat verilməsi;

3.2. elektron informasiya resurslarından istifadənin təmin edilməsi;

3.3. Veb sayt strukturunun istifadəçilərə aşağıdakı xidmətləri təklif edir:

Bakı Qızlar Universitetinin Veb sayt strukturu Bakı Qızlar Universitetində səriştəyə əsaslanan şəxsiyyət-yönümlü təhsil məzmununun yaradılmasına, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsi ilə təhsilin məzmununun səmərəli mənimsənilməsinə, müasir tələblərə cavab verən təhsil infrastrukturunun formalaşmasına, tədris prosesinin İKT üçün açıqlıq mühitinin yaradılmasına yönələn müvafiq funksiyalar daşıyır.

3.4. informasiya daşıyıcılarının qeydiyyatını, yerləşdirilməsini və mühafizəsini təmin edir.

3.5. öz fəaliyyəti haqqında hesabat hazırlayır.

**Veb sayt strukturunda kabinet müdirinin vəzifə öhdəlikləri**

4. Bakı Qızlar Universitetinin Veb sayt strukturuna rəhbərliyi Veb sayt strukturunun kabinet müdiri həyata keçirir. Bakı Qızlar Universitetinin Veb sayt strukturunun kabinet müdiri vəzifəsinə təyinat Bakı Qızlar Universitetinin rektorunun səlahiyyətinə aiddir.

4.1 Bakı Qızlar Universitetinin iş planına uyğun, Elmi Şuranın müvafiq qərarlarına əsaslanan, tədris ilinin müvafiq çağırışları ilə şərtlənən "Kompüter mərkəzi üçün illik fəaliyyət planı"nın tərtibini təmin etmək Veb saytının strukturunun kabinet rəhbərinin səlahiyyətinə aiddir:

4.2. Universitetdə mövcud olan kompüterlərin tədris ilində davamlı işləkliyini diqqət mərkəzində saxlamaq;

4.3. informatika yönümlü dərslərin tədrisini kompüter otaqlarında təşkil etmək və dərslərin yüksək səviyyədə həyata keçirilməsinə nəzarət etmək;

4.4. Universitetin kompüter laboratoriyalarını ümumi şəbəkə resursları ilə təmin etmək və internet bağlantısını təşkil etmək;

4.5.Universitetdə WI-FI şəbəkəsinin qurulmasını təşkil etmək və düzgün işləməsinə nəzarət etmək;

-tələbələrin dərs müddətində və dərsdənkənar vaxtlarda kompüterlərdən və internetdən müstəqil istifadəsini təmin etmək;

- kompüter avadanlıqlarının alınması, quraşdırılması və texniki xidmət işini təşkil etmək və bu sahədə qarşıya çıxan problemlərin aradan qaldırılmasına nəzarət etmək;

- Bakı Qızlar Universitetinin Web saytının operativ işləməsinə nəzarət etmək;

- müxtəlif fənlər üzrə dərslərin kompüter laboratoriyalarında keçirilməsinə şərait yaratmaq;

- müəllimlərə multimediya avadanlıqlarından istifadə etməyi öyrətmək;

- digər dərs otaqlarında da İKT-dən istifadə etməklə dərslərin təşkilinə nəzarət etmək.

4.6. Bakı Qızlar Universitetinin Veb sayt strukturunda kabinet müdiri Elmi Şura və ya rəhbərlik qarşısında hesabatla çıxış edir.

**Veb sayt strukturunda kabinet müdirinin hüquqları**

5.1.Veb sayt strukturunda kabinet müdiri iş planına müvafiq və ya öz təşəbbüsü ilə yığıncaqlar keçirir, yığıncaqlarda qarşıya qoyulmuş vəzifələrin icra vəziyyəti təhlil olunur, müvafiq qərarlar qəbul olunur.

**Məsuliyyət**

6.1. Şöbə öz fəaliyyətini Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin tələblərinə uyğun həyata keçirməlidir, hər hansı hüquqa zidd əmələ görə müvafiq məsuliyyət daşıyır;